era
Azerbaijan
Energy
Regulatory
Agency



ENERJİ MƏSƏLƏLƏRİNİ
TƏNZİMLƏMƏ AGENTLİYİ

# Elektron məlumat kitabçası

www.regulator.gov.az

# Biz kimik?

Azerbaijan Energy Regulatory Agency

ENERJİ MƏSƏLƏLƏRİNİ TƏNZİMLƏMƏ AGENTLİYİ

## Yaranma tarixi

Enerji Məsələlərini Tənzimləmə Agentliyi (EMTA) Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2017-ci il tarixli, 1750 nömrəli Fərmanı ilə Energetika Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusu ilə yaradılıb.

## Fəaliyyət istiqamətləri

EMTA elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahələrində fəaliyyət göstərən müəssisələr və istehlakçılar arasında münasibətlərin tənzimlənməsini və müvafiq tələblərin əməl edilməsinə nəzarəti həyata keçirir.

Elektrik enerjisi

Təbii qaz

İstilik enerjisi

# TƏNZİMLƏMƏNİN ZƏRURİLİYİ

Dünyada kommunal xidmət sektorunda tənzimləyici qurumun olması təsbit olunmuş mütərəqqi təcrübədir və bu sahədə ilk uğurlu nəticələr elektroenergetika sektorunda qazanılıb.

Hələ keçən əsrin **50**-ci illərində Böyük Britaniya və Çili, **80-90**-cı illərində isə Cənubi Amerika, Şimali Amerika, Avstraliya, bəzi Avropa və Asiya ölkələrində elektroenergetika sektorunda rəqabətə əsaslanan liberal bazar münasibətləri sürətlə formalaşmağa başlayıb və tənzimləyici qurumlar yaradılıb.
Beləliklə, dayanıqlı, etibarlı və səmərəli təchizatın təmin edilməsi məqsədilə digər kommunal xidmət sektorunda da tənzimləmə aparılaraq bazar münasibətləri inkişaf etdirilib.

Hal-hazırda elektroenergetika sektorlarında bazar münasibətləri dünya dövlətlərinin ümumi ərazisinin **73** %-də tam formalaşıb. Bu ərazilərdə yaşayan əhalinin sayı dünya əhalisinin **74** %-ni təşkil edir və dünya üzrə ümumi daxili məhsulun **93** %-i həmin ölkələrin payına düşür.



## EMTA-nın tənzimləyici funksiyası

EMTA Azərbaycan Respublikasında elektrik və istilik enerjisi, həmçinin qaz təchizatı sahələrində fəaliyyət göstərən müəssisələrlə istehlakçılar arasında münasibətləri tənzimləyir. Həmçinin, istehlakçılara göstərilən xidmətlərin keyfiyyətinə dair tələblərə əməl edilməsinə nəzarət edir, sözügedən subyektlərin və istehlakçıların maraqları arasında balansı təmin etməklə əmələ gələn hər hansı bir mübahisəni həll edən qərəzsiz vasitəçi rolunu oynayır, istehsalçı-istehlakçı maraqlarının qorunması üçün tədbirlər həyata keçirir.

Tənzimləmə və müvafiq tələblərin əməl edilməsinə nəzarəti həyata keçirməkdə məqsəd şəffaflıq, obyektivlik və qərəzsizlik prinsiplərinə uyğun olaraq, tənzimlənən sahədə istehlakçılara etibarlı, keyfiyyətli, əlçatan və fasiləsiz xidmətlər göstərilməsini təmin etməkdir.

# MÜNDƏRİCAT




İstehlakçı müraciətlərinə baxılması 1

Elektrik qurğularının quraşdırılması üçün ixtisas tələbləri 2

Elektrik şəbəkəsinə qoşulma 3

Elektrik qurğularının istismara buraxılması 4

Elektroenergetika sektorunda tənzimlənən qiymət və tariflər 5

Sahibkarlıq sahəsində aparılan yoxlamalar 6

Azerbaijan Energy Regulatory Agency

# İstehlakçı müraciətlərinə baxılması



1

1
2
3
4
5
6

## EMTA-ya müraciət və müraciətlərə baxılma mexanizmi

1. İstehlakçılar müxtəlif vasitələrlə, o cümlədən Filiallar, Çağrı Mərkəzi, poçt, sosial media platformalarındakı səhifələr və rəsmi internet saytı vasitəsilə **müraciət edə bilirlər.**

2. Müraciət qəbul edildikdən sonra ədalətli nəticə əldə etmək üçün **hər bir müraciət hərtərəfli araşdırılır.**

3. Müraciətlərə vaxtında cavab verilir və həll prosesi boyunca istehlakçılar məlumatlandırılır.

4. Vətəndaşların müraciətləri haqqında Qanunun 9.2-ci, 9.6-cı və 10.2-10.4-cü maddələrində göstərilən hallar istisna olmaqla, **vətəndaşların müraciətlərinə ən geci 15 iş günü, əlavə öyrənilmə və yoxlanılma tələb edən müraciətlərə isə ən geci 30 iş günü müddətində** baxılır.

5. İstehlakçılara keyfiyyətli və səmərəli xidmət göstərilməsinin təmin edilməsi üçün **“İstehlakçıların hüquqlarının müdafiəsi haqqında”** Azərbaycan Respublikasının 1995-ci il 19 sentyabr tarixli 1113 nömrəli Qanununa uyğun nəzarəti həyata keçirir, bu sahədə qanun pozuntularının qarşısının alınması və pozuntuya yol vermiş şəxslərin qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilməsi məqsədilə tədbirlər görülür.

6. İstehlakçıların hüquqlarının və qanuni mənafelərinin pozulmasına **gətirib çıxaran və ya gətirib çıxara biləcək hərəkətlərin qarşısının alınması üçün tədbirlər hazırlanır** və həyata keçirilir.

EMTA-ya **daxil olan müraciətlərin statistikası**



era
Azerbaijan
Energy
Regulatory
Agency

# Elektrik qurğularının quraşdırılması üçün ixtisas tələbləri



2

1
2
3
4
5
6

## Normativ hüquqi baza

**Elektrik təchizatı sistemlərinin layihələndirilməsi və mühəndis-kommunikasiya və şəbəkələrinin qurulması** fəaliyyətlərinin həyata keçirilməsi üçün tələblər aşağıda göstərilən normativ hüquqi aktlarla tənzimlənir:

- “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VİQ nömrəli Qanunu
- “Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq xüsusi razılıq (lisenziya) verilməsi üçün tələb olunan əlavə şərtlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 7 noyabr tarixli 174 nömrəli Qərarı
- “Özəl tibb fəaliyyəti üzrə lisenziyalaşdırılan xidmətlərin və işlərin Siyahısı”nın, “Tikintisinə icazə tələb olunan bina və qurğuların mühəndis-axtarış işlərinin Siyahısı”nın, “Tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işlərinin Siyahısı”nın və “Tikintisinə icazə tələb olunan və barəsində məlumatlandırma icraatı tətbiq olunan bina və qurğuların layihələndirilməsi üzrə işlərin Siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 15 may tarixli 206 nömrəli Qərarı
- “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının 2001-ci il 4 dekabr tarixli 223-IIQ nömrəli Qanunu

1
2
3
4
5
6

**Tələb olunan lisenziya növü:**

- Tikintisinə icazə tələb olunan və barəsində məlumatlandırma icraatı tətbiq olunan bina və qurğuların layihələndirilməsi

**İşlərin adı:**

- **Mühəndis sistemlərinin layihələndirilməsi:** **Elektrik təchizatı sistemlərinin layihələndirilməsi**

"Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176 VİQ nömrəli Qanununa uyğun olaraq

**Lisenziya verilməsi üçün tələb olunan əlavə şərtlər:**

Ərizəçinin texniki istehsalat heyəti haqqında arayış

Ərizəçinin baş layihəçi funksiyasını həyata keçirmək üçün müvafiq ixtisas tələblərinə cavab verən daimi işləyən aparıcı mütəxəssisləri olmadıqda, həmin sahələr üzrə (layihənin baş memarı və ya baş mühəndisi istisna olmaqla) işlərin yerinə yetirilməsi məqsədi ilə müvafiq lisenziyaya malik olan hüquqi və ya fiziki şəxslə əməkdaşlıq haqqında bağlanmış müqavilənin surəti

Ərizəçinin layihə işlərinin keyfiyyətinə nəzarət sisteminin mövcudluğu barədə arayış

Lisenziyalaşdırılması nəzərdə tutulan fəaliyyət növü üzrə rəhbər və aparıcı mütəxəssislərin, o cümlədən layihənin baş mühəndisi və ya baş memarının, memarının, konstruktorunun, mühəndis avadanlıqları, şəbəkələri və sistemləri, nəqliyyat infrastrukturu layihələri, layihənin xüsusi bölmələri və digər sahələr üzrə mütəxəssislərin müvafiq ixtisasa və ən azı 5 illik iş təcrübəsinə malik olmaları haqqında sənədlərin surəti

Lisenziyalaşdırılması nəzərdə tutulan fəaliyyət növünü həyata keçirmək üçün hüquqi şəxsin mülkiyyətində və ya qanuni istifadəsində qeyri-yaşayış sahəsinin olmasını təsdiqləyən sənədlərin surəti

**Dövlət rüsumu:** **550 AZN**

**Müddət:** 10 gün

**Tələb olunan lisenziya növü:**

- Tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işləri

**İşlərin və xidmətlərin adı:**

- **Mühəndis-kommunikasiya və şəbəkələrinin qurulması işləri**
- **Xüsusi qurğuların tikinti və quraşdırılması: elektrik ötürücü xətləri**

“Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176 VİQ nömrəli Qanununa uyğun olaraq

## Lisenziya verilməsi üçün tələb olunan əlavə şərtlər:

Ərizəçinin ştatında olan 5 (beş) mütəxəssisin müvafiq ixtisas üzrə ən azı 3 illik iş stajına malik olmaları haqqında sənədlərin surəti

Ərizəçinin müvafiq işləri aparmaq üçün maddi-texniki bazaya, o cümlədən binalara və ya qeyri-yaşayış sahələrinə, tikinti avadanlıqlarına, nəqliyyat, texnoloji və təhlükəsizlik təminatı vasitələrinə, mexaniki və əl alətlərinə, daşınan enerji qurğularına və nəzarət-ölçü cihazlarına malik olması barədə arayış

Ərizəçinin görülən işlərin keyfiyyətinə nəzarət sisteminə malik olması barədə arayış

Ərizəçinin ölçü vasitələrinin və cihazlarının standartlara uyğunluğunu və yararlılığını təsdiq edən sənədlərin surəti

Lisenziyalaşdırılması nəzərdə tutulan fəaliyyət növlərinin mülki məsuliyyətinin sığortalanmasını təsdiq edən sənədin (sığorta şəhadətnaməsinin) surəti

**Dövlət rüsumu: 550 AZN**

**Müddət:** 10 gün

1
2
3
4
5
6

Azerbaijan Energy Regulatory Agency

# Elektrik şəbəkəsinə qoşulma

3



1
2
3
4
5
6

**“Elektrik şəbəkəsinə dair Qaydalar”ın təsdiq edilməsi haqqında ” Nazirlər Kabinetinin 25 iyun 2024-cü il tarixli 315 nömrəli Qərarı ilə təsdiq edilmişdir. Qərar 2025-ci il iyulun 1-dən qüvvədədir.**

Qaydaya əsasən məişət istehlakçılarının və tikinti obyektinin şəbəkəyə qoşulması və ya əlavə enerji (güc) alması məqsədilə texniki şərtlərin və şəbəkəyə qoşulma layihəsinin hazırlanması üçün sifarişçi “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 29-cu və 30-cu maddələrinə uyğun olaraq, bu Qaydanın 159.2-ci bəndində qeyd olunan məlumatları İnformasiya Sisteminə daxil edir və ya həmin məlumatların İnformasiya Sisteminə daxil edilməsi məqsədilə tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) ərazi üzrə xidmət nöqtələrində sistem operatorunun nümayəndəsinə ərizə ilə (elektron və ya yazılı formada) müraciət edir.

**Məişət istehlakçılarının və tələb olunan gücü *200* kVt-a qədər (*200* kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin şəbəkəyə qoşulması və ya əlavə elektrik enerjisi (güc) alması**

| Sistemə daxil edilməli məlumatlar | |
|---|---|
| Sifarişçinin (məişət abonenti istisna olmaqla) **VÖEN-i** | Sifarişçinin **şəxsiyyətini təsdiq edən sənədin FİN nömrəsi** (VÖEN olmadıqda) |
| Tələb olunan elektrik enerjisinin **gücü, qoşulma gərginliyi, etibarlılıq üzrə kateqoriyası** | Sifarişçinin **mobil telefon nömrəsi, poçt və elektron poçt** ünvanı (elektron poçt ünvanı olduqda) |

Sifarişçinin şəbəkəyə qoşulması nəzərdə tutulan **tikinti obyektinin və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsinin ünvanı (olduğu yer) və həmin tikinti obyekti və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsi üzərində sifarişçinin mülkiyyət və digər əşya hüququnu təsdiq edən sənəd barədə məlumatlar (daşınmaz əmlakın dövlət reyestr nömrəsi və daşınmaz əmlakın qeydiyyat nömrəsi) və ya həmin sənədin skan olunmuş surəti** (həmin məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda)

Elektron müraciət üçün keçid

**Müddət : 20 gün**

Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödənişin məbləğləri Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının qərarı ilə tənzimlənir.

| Xidmətin adı | Ölçü vahidi | Ödəniş məbləği (manat, ƏDV ilə) | İşğaldan azad edilmiş ərazilər üzrə ödəniş məbləği (manat, ƏDV ilə) |
|---|---|---|---|
| 1-fazlı (<=10 kVt) | 1 kVt güc üçün | 40 | ödənişsiz |
| 1-fazlı (10,1-20 kVt) | 1 kVt güc üçün | 60 | ödənişsiz |
| 3-fazlı | 1 kVt güc üçün | 293 | 102,55 |

**Tələb olunan gücü *200* kVt-a qədər (orta və yüksəkgərginlikli şəbəkədən) və *200* kVt-dan yuxarı olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin habelə elektrik enerjisi istehsalçılarının, tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması**

| Sistemə daxil edilməli məlumatlar | |
|---|---|
| Sifarişçinin (məişət abonenti istisna olmaqla) **VÖEN-i** | Sifarişçinin **şəxsiyyətini təsdiq edən sənədin FİN nömrəsi** (VÖEN olmadıqda) |
| Tələb olunan elektrik enerjisinin **gücü, qoşulma gərginliyi, etibarlılıq üzrə kateqoriyası** | Sifarişçinin **mobil telefon nömrəsi, poçt və elektron poçt** ünvanı (elektron poçt ünvanı olduqda) |

Sifarişçinin şəbəkəyə qoşulması nəzərdə tutulan **tikinti obyektinin və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsinin ünvanı (olduğu yer) və həmin tikinti obyekti və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsi üzərində sifarişçinin mülkiyyət və digər əşya hüququnu təsdiq edən sənəd barədə məlumatlar (daşınmaz əmlakın dövlət reyestr nömrəsi və daşınmaz əmlakın qeydiyyat nömrəsi) və ya həmin sənədin skan olunmuş surəti** (həmin məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda)

Elektron müraciət üçün keçid

**Müddət:** Texniki sərtlər sifarisçinin müraciət etdiyi tarixdən etibarən 7 (yeddi) gündən gec olmayaraq, enerji təchizati layihəsi ilə birlikdə **30 gün**

Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödənişin məbləğləri Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının qərarı ilə tənzimlənir

| Xidmətin adı | Ölçü vahidi | Ödəniş məbləği (manat, ƏDV ilə) | İşğaldan azad edilmiş ərazilər üzrə ödəniş məbləği (manat, ƏDV ilə) |
|---|---|---|---|
| Aşağı gərginlikli şəbəkədən qoşulma | 1 kVt güc üçün | 293 | ödənişsiz |
| Orta gərginlikli şəbəkədən qoşulma | 1 kVt güc üçün | 170 | ödənişsiz |

**Ödəniş üsulları**

| Bank kartı vasitəsilə | Ödəniş terminalları vasitəsilə |
|---|---|

1
2
3
4
5
6

Azerbaijan Energy Regulatory Agency

# Elektrik qurğularının istismara buraxılması



1
2
3
4
5
6

## 4

Müxtəlif qurumların, o cümlədən istehsalçıların, istehlakçıların və subabonentlərin elektrik qurğuları istismara buraxılmazdan əvvəl təhvil-təslim sınaqlarından keçməli və quraşdırma təşkilatı tərəfindən verilmiş aktla sifarişçi tərəfindən rəsmi qəbul edilməlidir. **Elektroenergetika haqqında Azərbaycan Respublikası Qanununun 8.1.4-cü bəndinə əsasən 200 kVt-dan yuxarı elektrik qurğularına münasibətdə istismara buraxılış aktı EMTA tərəfindən verilir.**

“Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası”na əsasən 200 kVt-dan yuxarı elektrik qurğularının istismarına buraxılış aktı vermək üçün **texniki baxış keçirilməlidir**.

## Sifarişçilərin texniki baxışın keçirilməsi üçün təqdim etməli olduğu sənədlər

| | | | |
|---|---|---|---|
| 1. Ötürücü və ya paylayıcı sistem operatorunun verdiyi **texniki şərtlər** | 2. Ötürücü və paylayıcı sistem operatoru ilə **razılaşdırılmış enerji təchizatı layihəsi** | 3. Tikinti-quraşdırma işlərini aparmış şəxslə sifarişçi arasında **təhvil-təslim aktı** | 4. Elektrik təsərrüfatına **cavabdeh şəxsin təyin olunması barədə əmrin surəti** |
| 5. Kontur torpaqlama **müqavimətinin ölçülməsi protokolu** | 6. Transformatorun və avadanlıqların **sınaq-sazlama protokolu** | 7. Elektrik veriliş xəttinin **sınaq protokolu və qapalı işlər aktı** | 8. Elektrik sayğacının **quraşdırılması aktı** |

9. **“Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 18.2.1 – 18.2.4-cü maddələrinə uyğun olan** aşağıda göstərilən sənədlər:

| | | | |
|---|---|---|---|
| 9.1 Ərizəçi hüquqi şəxs, xarici hüquqi şəxsin filialı, nümayəndəliyi olduqda, hüquqi şəxslərin **dövlət reyestrindən çıxarışın surəti** | 9.2 Ərizəçi fərdi sahibkar olduqda, **şəxsiyyət vəsiqəsinin surəti** | 9.4 Ərizəçinin vergi ödəyicisi kimi uçota alınması haqqında **şəhadətnamənin surəti** | 9.4 Ərizədə qeyd olunan obyektlərdən hər biri üzərində **ərizəçinin mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiq edən sənədin surəti** (əgər lisenziya tələb olunan fəaliyyətin həyata keçirilməsi və icazə tələb olunan hərəkətin yerinə yetirilməsi obyektlə bağlıdırsa) |

EMTA tərəfindən “Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası”na əsasən texniki baxış keçirilərkən aşağıdakılar müəyyən edilir:

Elektrik xətlərinin çəkilməsinin və tikinti-quraşdırma işlərinin **texniki şərtlərin və enerji təchizatı layihəsinin tələblərinə** uyğunluğu

Elektrik xətlərinin çəkilməsi və tikinti-quraşdırma işlərinin **elektrik qurğularının quraşdırılması qaydalarının tələblərinə** uyğunluğu

1. Qaydalarla nəzərdə tutulmuş uyğunluq halları müəyyən edildiyi təqdirdə EMTA istismara buraxılış aktının verilməsi üçün **dövlət rüsumunu ödəməsi vəzifəsi barədə sifarişçiyə şifahi və ya yazılı formada məlumat verir**.

2. Sifarişçi bu barədə məlumat aldığı tarixdən **5 (beş) iş günü müddətində dövlət rüsumunu ödəyir və ödənişi təsdiq edən sənədi** EMTA-ya təqdim edir.

3. Sifarişçi dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənədi təqdim etdikdən sonra istismara buraxılış aktı **2 (iki) iş günündən gec olmayaraq, EMTA rəhbəri və ya onun həvalə etdiyi vəzifəli şəxs tərəfindən imzalanır və möhürlə təsdiq edilərək** sifarişçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

era
Azerbaijan
Energy
Regulatory
Agency

# Elektroenergetika sektorunda tənzimlənən qiymət və tariflər

# 5



1
2
3
4
5
6

"Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il tarixli 2143 nömrəli Fərmanının 1.7-ci hissəsinə əsasən "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanunun 42.3.5-ci və 42.5.6-cı maddələrinə uyğun olaraq elektroenergetika sektorunda mövcud qiymət və tariflər elektrik enerjisi bazarı elementlərinin tətbiqi prosesinin birinci və ikinci mərhələlərində **Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən tənzimlənir.**

**EMTA-nın (tarif) siyasətinin formalaşması ilə bağlı fəaliyyəti:**

**Qiymət (tarif) siyasətinin formalaşması**

EMTA Azərbaycan Respublikasında elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahələrində **qiymət (tarif) siyasətinin formalaşdırılması** ilə bağlı təkliflər verir.

**Təkliflərin təhlili**

EMTA elektrik və istilik enerjisi, habelə qazın qiymətləri (tarifləri) ilə bağlı **daxil olmuş təklifləri təhlil edir və həmin qiymətlərin (tariflərin ) dövlət tənzimlənməsinə** dair təkliflərini aidiyyəti üzrə təqdim edir.

**"Elektroenergetika haqqında Qanuna" əsasən 2028-ci ildən başlayaraq Tənzimləyici tərəfindən elektroenergetika sektorunda aşağıda göstərilən tənzimlənən qiymət və tariflər müəyyən edilir:**

**Elektrik enerjisinin ötürülməsi tarifləri**
Yüksək gərginlikli elektrik xətləri vasitəsilə elektrik enerjisinin ötürülməsinin dəyəri

**Bazar operatorunun xidmətlərinin tarifləri**
Elektrik enerjisi bazarının fəaliyyəti ilə bağlı ödənişlər, məsələn, tələb və təklifin idarə edilməsi

**Təchizat tarifləri**
Sərbəst olmayan istehlakçılar və müvafiq sərbəst istehlakçılar üçün elektrik enerjisinin təchizatı tarifləri

**Sabit tarif**
Elektrik enerjisinin istehlak səviyyəsindən asılı olmayan sabit xarakterli xərclərin tənzimləyici tərəfindən müəyyənləşdirilən hissəsinin qarşılanması məqsədilə hər bir istehlakçı üzrə tətbiq olunan aylıq tarif elementi

**Elektrik enerjisinin paylanması tarifləri**
Elektrik enerjisinin yerli şəbəkələr vasitəsilə istehlakçılara paylanmasının dəyəri

**Ötürücü və paylayıcı şəbəkələrə qoşulma xidmətlərinin qiymətləri** Evləri və digər obyektləri ötürmə və paylayıcı şəbəkələrə qoşmaq üçün ödənişlər

**Sərbəst istehlakçılar**

İllik elektrik enerjisi sərfiyyatı 5 000 000, sənaye parklarının rezidentlərinə və qeyri-rezidentlərinə münasibətdə 1 000 000 kilovat-saatdan yuxarı olan və elektrik enerjisini ölkə ərazisində fəaliyyət göstərən istənilən təchizatçıdan almaq hüququna malik olan istehlakçı

Elektrik enerjisinin ölkədaxili tariflərinə keçid

1 2 3 4 5 6

era
Azerbaijan
Energy
Regulatory
Agency

# Sahibkarlıq sahəsində aparılan yoxlamalar



6

EMTA tərəfindən "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda **nəzərdə tutulmuş hallarda və qaydada yoxlama aparıla bilər**

| Planlı yoxlamanın aparılması | | Plandankənar yoxlamanın aparılması | |
|---|---|---|---|
| Yoxlamaya 5 gün qalmış **yoxlama aparılmasına dair qərarın surəti yollanılır.** | Yoxlamaya 5 gün qalmış **sahibkarın və yoxlayıcı orqanın hüquq və vəzifələrinin izahı** göndərilir. | Yoxlamanın aparılması haqqında **qərar sahibkara yoxlamanın başlandığı an təqdim** edilir. | Yoxlama başlandığı an **sahibkarın və yoxlayıcı orqanın hüquq və vəzifələri izah** edilir. |

Plan üzrə (növbəti) yoxlamanın müddəti **iri sahibkarlarda 10 (on) iş günündən, orta, kiçik və mikro sahibkarlarda 5 (beş) iş günündən** artıq olmamalıdır.

Plandankənar (növbədənkənar) yoxlamanın müddəti **iri sahibkarlarda 5 (beş) iş günündən, orta, kiçik və mikro sahibkarlarda 3 (üç) iş günündən** artıq olmamalıdır.

İri, orta, kiçik və mikro sahibkarların meyarları "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilir

Yoxlama yalnız onun aparılması haqqında **qərarda göstərilən yoxlayıcı (yoxlayıcılar) tərəfindən** aparılır.

**Yoxlama başlamazdan əvvəl yoxlayıcının sahibkara və ya onun səlahiyyətli nümayəndəsinə təqdim etdiyi sənədlərin siyahısı**

| | |
|---|---|
| 1. **Xidməti vəsiqəsi** (şəxsiyyət vəsiqəsi ilə birlikdə) | 2. Yoxlamanın aparılması haqqında **qərarın surəti** |
| 3. Yoxlamanın "Yoxlamaların vahid məlumat reyestri"ndə **qeydiyyata alınması barədə çıxarış** | 4. Yoxlamanın **hüquqi əsasları, predmeti, müddəti, yoxlama zamanı tərəflərin hüquq və vəzifələri** haqqında məlumat verir. |

Yoxlama yalnız **sahibkarın iş vaxtında və iş günlərində sahibkarın yerləşdiyi və ya faktiki fəaliyyət göstərdiyi ünvanda** (yoxlamanın aparıldığı ünvan yoxlamanın aparılması haqqında qərarda və yoxlamaların vahid məlumat reyestrindən çıxarışda göstərilir) aparılır.

Yoxlama tədbirləri **sahibkarın normal iş rejimini pozmamalıdır.**

Yoxlama nəticələrinin yoxlama aktı ilə **rəsmiləşdirilməsi**

Yoxlama aktında **göstərilən məlumatlar**:

| | |
|---|---|
| 1. Yoxlayıcı **orqanın adı** | 2. **Aktın nömrəsi** və tərtib edildiyi **tarix** |
| 3. Yoxlamaların **vahid məlumat reyestrindən verilən kod** | **4.** Yoxlanılan sahibkarın **adı və VÖEN-ni** |
| 5. Yoxlama aktına **əlavə edilən sənədlərin siyahısı** | 6. Yoxlama **obyektinə dair məlumatlar** (adı, ünvanı, təsviri və s.) |
| 7. Yoxlamada iştirak edən yoxlayıcının (yoxlayıcıların) **soyadı, adı, atasının adı və vəzifəsi** | 8. Yoxlamanın aparılması haqqında **qərarın tarixi və nömrəsi** |
| 9. Sahibkara yoxlama zamanı onun **hüquq və vəzifələrinin izah edilməsi** haqqında məlumat | 10. Yoxlamada iştirak etmiş bütün **yoxlayıcıların və sahibkarın və ya onun səlahiyyətli nümayəndəsinin imzala**rı |
| 11. Yoxlamanın **müddəti** (başlama və başa çatma tarixləri göstərilməklə) | 12. Yoxlama suallarının siyahısının konkret suallarının nömrələri göstərilməklə **aşkar olunmuş qanun pozuntularının məzmunu, tələbləri pozulmuş normativ hüquqi aktların konkret struktur elementləri** |
| 13. Əgər varsa, sahibkarın və ya onun səlahiyyətli nümayəndəsinin **izahatı, iradı və ya etirazı** | |

Yoxlama nəticələrinin yoxlama aktı ilə **rəsmiləşdirilməsi**

Yoxlama aktının tərtib edilməsi zamanı **aşkar edilmiş faktlar yoxlama aktında aydın və dəqiq göstərilməlidir.** Yoxlama aktına yoxlama suallarının siyahısının yoxlanılmamış suallarının nömrələrini, habelə yoxlanılan sahibkarın fəaliyyəti ilə bağlı təsdiqini tapmamış müxtəlif faktların və məlumatların daxil edilməsinə yol verilmir.

Yoxlama aktına yoxlama suallarının siyahısı, habelə yoxlama aktında göstərilən məlumatları təsdiqləyən və **yoxlamanın nəticələri üzrə qərarın qəbul edilməsi üçün əhəmiyyət kəsb edən** digər sənədlər əlavə edilir.

Yoxlama aktı yoxlamanın başa çatdığı gündən gec olmayaraq yoxlamada iştirak edən bütün yoxlayıcılar tərəfindən imzalanır. Yoxlama aktını imzalamış yoxlayıcılar yoxlama aktına və yoxlama suallarının siyahısına **daxil edilmiş qeyd və məlumatların düzgünlüyünə görə məsuliyyət** daşıyırlar.

Yoxlama aktı yoxlamada iştirak etmiş yoxlayıcılar tərəfindən imzalandıqdan sonra **sahibkara və ya onun səlahiyyətli nümayəndəsinə imzalanmaq üçün** təqdim edilir.

Yoxlama aktının sahibkar və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanması sahibkarın yoxlama aktının **məzmunu ilə tanış olması faktını** təsdiq edir. Yoxlama aktının sahibkar və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən **imzalanması faktı sahibkarın yoxlama aktının məzmunu və ona əlavə edilmiş sənədlər ilə bağlı (yoxlama suallarının siyahısı da daxil olmaqla) razılığını bildirmir**.

Sahibkar yoxlama aktının məzmunu və (və ya) ona əlavə edilmiş sənədlərlə (yoxlama suallarının siyahısı da daxil olmaqla) və ya yoxlayıcının hərəkəti (hərəkətsizliyi) ilə **razılaşmadığı halda, yoxlama aktında yoxlama aktını imzalamazdan əvvəl müvafiq qeyd aparmaqla** öz izah, irad və etirazını bildirə bilər.

Yoxlama aktı **iki nüsxədə** tərtib edilir. Yoxlama aktının və ona əlavə edilmiş sənədlərin bir nüsxəsi **sahibkara və ya onun səlahiyyətli nümayəndəsinə təqdim edilir, digər nüsxəsi isə yoxlayıcı orqanda** qalır.

Sahibkar yoxlama aktını almaqdan və (və ya) onu **imzalamaqdan imtina** etdikdə bu barədə yoxlayıcılar tərəfindən yoxlama aktında müvafiq qeydlər aparılır. Bundan sonra yoxlama aktının müvafiq surəti alınmasını təsdiq edən istənilən vasitə ilə **yoxlama başa çatdığı tarixdən növbəti üç iş günü ərzində** sahibkara göndərilir.

## Yoxlama materiallarına **baxılması**

Yoxlayıcı orqanın vəzifəli şəxsləri yoxlama materiallarına baxarkən **düzgün qərar çıxarılması üçün əhəmiyyət kəsb edən bütün halları hərtərəfli, tam və obyektiv araşdırmağa borcludur**. Bu zaman sahibkarın xeyrinə olan halların araşdırılmasından və nəzərə alınmasından imtina edilə bilməz.

Sahibkar yoxlama **materiallarına baxılmasında birbaşa, yaxud nümayəndə və ya vəkil vasitəsilə** iştirak edə bilər.

Yoxlayıcı orqan sahibkarı və aidiyyəti şəxsləri **yoxlama materiallarına baxılması ilə bağlı iclasın vaxtı və yeri haqqında rəsmi qaydada yazılı şəkildə xəbərdar** etməyə məcburdur.

# Bizimlə əlaqə




## Baş ofis:

Azərbaycan Respublikası, AZ1000, Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 84.
Hökumət Evi, giriş 5

## Telefon :

(+99412) 598-16-53/54/55

## E-poçt:

office@regulator.gov.az

Azerbaijan Energy Regulatory Agency

# ENERJİ MƏSƏLƏLƏRİNİ TƏNZİMLƏMƏ AGENTLİYİ

Bu "Elektron məlumat kitabçası" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyasının "Elektrik təchizatı şəbəkələrinə qoşulma" işçi qrupu tərəfindən Dünya Bankının "Business Ready" hesabatının "Kommunal xidmətlər (elektrik)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsinin 14-cü tədbirinin icrası ilə bağlı hazırlanmışdır.